*Azərbaycan Respublikası*
*Vəkillər Kollegiyası*
*Rəyasət Heyətinin*
*“13” sentyabr 2023-cü il*
*tarixli qərarı ilə təsdiq*
*edilmişdir.*

**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsi üzrə**

# DAXİLİ NƏZARƏT QAYDALARI

## I. Ümumi müddəalar

**1.1.** “Azərbaycan Respublikası Vəkillər Kollegiyasının cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsi üzrə Daxili Nəzarət Qaydaları” (bundan sonra – Qaydalar) “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun, “Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikası Qanununun, “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 fevral tarixli 3770 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı”nın, habelə Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin müvafiq qərarlarının (öhdəlik daşıyan şəxslərə, vəkillərə aid hissədə qəbul edilən qaydaların, digər norma və tələblərin) və digər hüquqi aktların tələbləri nəzərə alınmaqla hazırlanmışdır.

**1.2.** Bu Qaydaların mətnində “Qanun” deyildikdə, “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanunu, Vəkillər Kollegiyası deyildikdə isə Azərbaycan Respublikasının Vəkillər Kollegiyası başa düşülür.

**1.3.** Bu Qaydalarda istifadə olunan anlayışlar Qanunda nəzərdə tutulmuş anlayışlarla eyni mənaları ifadə edir.

**1.4.** Öhdəlik daşıyan şəxslərə, yəni vəkillərə münasibətdə Vəkillər Kollegiyası nəzarət orqanıdır.

**1.5.** Bu Qaydalar Qanunda və digər hüquqi aktlarda cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində vəkillərə münasibətdə nəzarət orqanının həyata keçirdiyi tədbirlərlə bağlı məsələləri müəyyən edir.

**1.6.** Bu Qaydalarda nəzərdə tutulmayan məsələlər Qanunla və digər hüquqi aktlarla tənzimlənir.

## II. Vəkillər Kollegiyasının nəzarət orqanı kimi səlahiyyətləri

**2.1.** Vəkillər Kollegiyası tərəfindən vəkillərin Qanunun tələblərinə əməl edilməsinə nəzarəti həyata keçirən nəzarət orqanıdır.

**2.2.** Vəkillər Kollegiyası tərəfindən vəkillərin Qanunun tələblərinə əməl edilməməsi aşkar edilərsə, onlara qarşı inzibati və ya qanunvericilikdə nəzərdə tutulmuş digər tədbirləri tətbiq etməli və bu barədə maliyyə monitorinqi orqanına məlumat verməlidir.

**2.3.** Vəkillər Kollegiyası tərəfindən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı qanunvericiliyin vəkillərə aid olan risk sahələrinin qiymətləndirilməsi il ərzində aşağıdakı **dövriliklə və müddətlə aparılır:**

**2.3.1.** Daşınmaz əmlakın alqı-satqısı ilə əlaqədar əməliyyatlar üzrə - ildə bir dəfədən az olmayaraq, 1 ay müddətinə yekunlaşmaqla;

**2.3.2.** Müştərinin pul vəsaitlərinin, qiymətli kağızlarının və ya digər əmlakının idarə olunması ilə əlaqədar əməliyyatlar üzrə - ildə bir dəfədən az olmayaraq, 1 ay müddətinə yekunlaşmaqla;

**2.3.3.** Müştərinin bank, depo, poçt, ödəniş və pul hesablarının idarə olunması ilə əlaqədar əməliyyatlar üzrə - ildə bir dəfədən az olmayaraq, 1 ay müddətinə yekunlaşmaqla;

**2.3.4.** Hüquqi şəxslərin yaradılması, onların fəaliyyətinin təmin və idarə edilməsi, bu məqsədlərlə pul vəsaitlərinin toplanılmasının təşkili, habelə hüquqi şəxslərin səhmlərinin və paylarının alqı-satqısı ilə əlaqədar əməliyyatlar üzrə - ildə bir dəfədən az olmayaraq, 1 ay müddətinə yekunlaşmaqla.

**2.3-1.** Qiymətləndirmənin **aparılması qaydasına** monitorinq cədvəli ilə müvafiq sorğular əsasında kameral və zərurət olduğu halda səyyar yoxlamalar, əvvəlki bitmiş il üzrə məlumatların tam öyrənilməsi və ya cari ilin müvafiq ayları üzrə vəziyyətin öyrənilməsi və qiymətləndirilməsi, risklər zamanı aşkar edilmiş nöqsanların aradan qaldırılması barədə tədbirlər daxildir.

**2.4.** Maliyyə monitorinqi orqanı (Maliyyə Monitorinq Xidməti) tərəfindən vəkillərə təqdim olunmalı müvafiq siyahı və məlumatlar Vəkillər Kollegiyası vasitəsilə elektron və ya yazılı formada vəkillərə təqdim olunur.

**2.5.** Vəkillər tərəfindən Vəkillər Kollegiyasına təqdim olunmuş müvafiq məlumatlar (Qanunla təqdim olunması nəzərdə tutulan məlumatlar) Vəkillər Kollegiyası tərəfindən Maliyyə Monitorinq Xidmətinə təqdim olunur.

**2.6.** Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması məqsədi ilə maliyyə monitorinqi orqanı məlumat əldə etmək üçün Vəkillər Kollegiyasına sorğu ilə müraciət etdikdə, Vəkillər Kollegiyası tərəfindən müvafiq məlumatlar maliyyə monitorinqi orqanına təqdim olunur.

**2.7.** Vəkillər Kollegiyasına təqdim olunan müvafiq məlumatlar toplanır və təhlil edilir.

## III. Vəkillər Kollegiyasının nəzarət orqanı kimi tədbirləri

**3.1.** Vəkillər Kollegiyası bu Qaydaların 2-ci hissəsində nəzərdə tutulan səlahiyyətləri daxilində, habelə qanunvericiliklə nəzərdə tutulmuş qaydada müvafiq tədbirlər görür.

**3.2.** Maliyyə monitorinqi orqanı öz vəzifə səlahiyyətlərini icra edərkən vəkillər tərəfindən Qanunun tələblərinə əməl edilməməsinə dair məlumat əldə edərsə, həmin məlumatda göstərilən şəxslərə qarşı inzibati və ya qanunvericilikdə nəzərdə tutulmuş digər tədbirlərin tətbiq edilməsi üçün Vəkillər Kollegiyasına təqdim etdikdə, Vəkillər Kollegiyası bununla bağlı tədbirlər görür.

**3.3.** Vəkillər Kollegiyası tərəfindən nəzarət tədbirləri çərçivəsində maliyyə monitorinqi orqanının dəstəyi ilə yaradılmış müvafiq proqram təminatından istifadə oluna bilər.

**3.4.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 70-3.4-cü bəndinə əsasən Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 598-ci (Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunvericiliyin pozulması) maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə **protokol** Azərbaycan Respublikasının Vəkillər Kollegiyası adından – Rəyasət Heyətinin sədri və onun müavinləri tərəfindən tərtib edilir.

**3.5.** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 598-ci maddəsinə uyğun olaraq aşağıda qeyd olunan inzibati xətalar Vəkillər Kollegiyası tərəfindən aşkar edildikdə və bununla bağlı müddət bitmədikdə, bu zamanı Vəkillər Kollegiyası adından müvafiq protokol tərtib olunmaqla, baxılması üçün aidiyyəti rayon (şəhər) məhkəməsinə təqdim edilir:

**3.5.1.** cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunvericiliyin pozulması, yəni:

**3.5.1.1.** vəkil tərəfindən müştəri uyğunluğu tədbirlərinə, məlumat və sənədlərin saxlanılmasına və üçüncü şəxslərə güvənməyə dair tələblərə riayət olunmaması (hər bir müştəriyə və əməliyyata görə);

**3.5.1.2.** vəkil tərəfindən daxili nəzarət proqramının tətbiq edilməməsi, yaxud tam tətbiq edilməməsi;

**3.5.1.3.** maliyyə monitorinqi orqanının cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində verdiyi yazılı göstərişlərin vəkil tərəfindən vaxtında və ya tam icra edilməməsi (hər bir yazılı göstərişə görə);

**3.5.1.4.** maliyyə nəzarət orqanının fəaliyyətinə maneələrin yaradılmasına, o cümlədən sorğulara cavab verilməməsinə, tələb olunan məlumat və sənədlərin təqdim edilməməsi və ya yanlış məlumat və sənədlərin verilməsi;

**3.5.1.5.** vəkil tərəfindən siyasi nüfuzlu şəxslər ilə bağlı tələblərə əməl edilməməsi (hər bir siyasi nüfuzlu şəxsə və əməliyyata görə);

**3.5.1.6.** vəkil tərəfindən yeni texnologiyaların tətbiq edilməsinə dair tələblərin pozulması;

**3.5.1.7.** qanunvericiliklə müəyyən edilmiş digər halların (tələblərin) vəkil tərəfindən pozulması.

**3.6.** Vəkil qurumunun və ya fərdi qaydada fəaliyyət göstərən vəkilin bank hesabına məqsədi bəlli olmayan, təyinatı şübhə doğuran və əsası olmayan vəsaitin köçürülməsi, habelə vəkil qurumunun və ya fərdi qaydada fəaliyyət göstərən vəkilin bank hesabından vəsaitin təyinatı aydın olmayan və şübhəli məsələlərə yönəldilməsi (bu məqsədlə vəsaitin başqa hesaba köçürülməsi) yolverilməzdir.

**3.7.** Bu Qaydaların 3.4-cü bəndində nəzərdə tutulmuş protokol, baxılması üçün protokolu tərtib etmiş şəxs tərəfindən Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 43-cü maddəsinə uyğun olaraq aidiyyəti rayon (şəhər) məhkəməsinə təqdim olunur.

**3.8.** Vəkillərin əməllərində (hərəkət və hərəkətsiz davranışlarında) cinayət məsuliyyəti yaradan hallar aşkar edildikdə, bununla bağlı qanunvericiliklə nəzərdə tutulmuş müvafiq tədbirlər həyata keçirilməlidir.

**3.9.** Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində tədbirlərlə əlaqədar qəbul edilən (təsdiq edilən) hüquqi aktlardan, habelə Milli Fəaliyyət Planlarından, Tədbirlər Planından, müvafiq məktublardan və göstərişlərdən irəli gələn və Vəkillər Kollegiyasına, vəkil qurumlarına, vəkillərə, vəkil köməkçilərinə və məsul şəxslərə aid olan tövsiyələrin (tapşrıqların) icrası müvafiq qaydada təmin edilir.

## IV. Məsul şəxslər və struktur bölmə

**4.1.** Vəkillər Kollegiyasının adından yoxlamalara məsul olan vəzifəli şəxslər, habelə Maliyyə Monitorinqi Xidməti ilə Vəkillər Kollegiyası adından operativ qaydada əməkdaşlığın təmin edilməsi məqsədilə məsul olan vəzifəli şəxslər Vəkillər Kolllegiyasının Rəyasət Heyətinin qərarı ilə müəyyən olunur.

**4.2.** Vəkillər Kollegiyasının tərkibində cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində nəzarəti həyata keçirəcək struktur bölmə Vəkillər Kolllegiyasının Rəyasət Heyətinin qərarı ilə müəyyən olunur.

**4.3.** Məsul şəxslər və nəzarəti həyata keçirən struktur bölmə səlahiyyətləri daxilində Qanundan, bu Qaydalardan və sahəvi hüquqi aktlardan irəli gələn tədbirləri həyata keçirirlər.

## V. Digər məsələlər

Bu Qaydalarda nəzərdə tutulmayan məsələlər Qanunda və digər hüquqi aktlarda nəzərdə tutulan müvafiq müddəalarla tənzimlənir.